**ƏDƏBİYYATŞÜNASLIQ**

**UOT 82**
**https://doi.org/10.59849/2311-8482.2025.1.12**

**ŞƏHLA FƏTƏLİYEVA***

# XIX ƏSR AZƏRBAYCAN ƏDƏBİ-MƏDƏNİ MÜHİTİ YENİ BİR MƏRHƏLƏDİR

*Məqalədə Azərbaycan ədəbi-mədəni mühiti yeni bir mərhələ kimi tədqiqata cəlb edilmişdir. Azərbaycan xalqının tarixi kimi onun ədəbiyyatı və mədəni mühiti qədim köklərə gedib dayanır. Ədəbiyyat uzun əsrlər boyu insanları, təbiətin, cəmiyyətin, həyat hadisələrinin, eyni zamanda gözəllikləri dərk etməyə istiqamət verən bir vasitədir.*

*Məqalənin əsas hissəsində XIX əsrdən etibarən Azərbaycan ədəbi-mədəni mühitində gedən proseslər tədqiqata cəlb edilmişdir.*

*Maarifçilik hərəkatı, Azərbaycan ədəbi-mədəni mühitində məktəb, mədrəsə, təlim, tərbiyənin olmağı haqqında məlumatlar bizə hələ əvvəlcədən məlumdur.*

*XIX əsr Azərbaycan tarixində xüsusi bir mərhələ təşkil edir. Bu özünü ədəbiyyat sahəsində də göstərir. A.Bakıxanov, Q.Zakir, M.Ş.Vazeh və digər qələm sahibləri buna misal ola bilər. Azərbaycan ədəbiyyatında həmin dövrdə tənqidi-realist satirik ədəbiyyatın əsası qoyulur. C.Məmmədquluzadə və digərləri bu sahədə mükəmməl nümunələr yaratmışlar.*

*Elə həmin dövrdə aşıq şeir nümunələri də dövrün ədəbi-mədəni nailiyyətlərindən hesab edilə bilər. Aşıq Ələsgər, Aşıq Qurban, Aşıq Alı kimi yaradıcı şairləri buna misal göstərə bilərik. Bütün bu deyilənlər geniş şəkildə məqalədə öz əksini tapmışdır.*

***Açar sözlər:*** *ədəbi, mədəni, şair, ziyalı, Azərbaycan*

## Giriş

Qədim tarixə malik olan Azərbaycan xalqı həyatın bütün sahələrində olduğu kimi ədəbiyyat və mədəni proseslərdə də həmişə diqqətə layiq olan nümüunələrlə yaratmışdır. Azərbaycan ədəbiyyatı uzun əsrlər boyu insanları təbiətin, cəmiyyətin, həyat hadisələrini, eyni zamanda gözəllikləri dərk etməyə istiqamət verən bir vasitədir desək yanılmarıq. Xalqın zəngin bədii təfəkkürü nağıllarda, əsatirlərdə nəsil-nəsil insanların həyat təcrübəsinin toplandığı mənbələrdə nəhəng söz ustadlarının yaradıcılığında özünün əsrarəngiz qüdrət, dözüm və əzəmətini təcəssüm etdirmişdir.

XVIII əsrdən etibarən Azərbaycan ədəbiyyatında realist meyllər qüvvətlənməyə başlamış, XIX əsrdə daha da inkişaf etmişdir. "Qədim tarixə malik olan mütərəqqi Azərbaycan ədəbiyyatı daim xalq ilə həmahəng "nəfəs almış", müxtəlif inkişaf mərhələlərində zamanın irəli sürdüyü sosial mətləblərin orjinal bədii həllinin vermək istiqamətində öz tarixi yolunu davam etdirmişdir". [1, s. 3]

## Əsas təhlil

Qədim və orta əsrlərdən başlayaraq yaşadığımız günlərədək Azərbaycan elm və mədəniyyətin formalaşmasında ayrı-ayrı ədəbi mərkəzlərin müstəsna rolu olmuşdur. Bir sıra ədəbi mərkəzlərimiz olan Bakı, Təbriz, Şamaxı, Quba, Qarabağ və sairələrində Azərbaycan ədəbi-mədəni mühitinin yüksək keyfiyyətlərini daimi silinməz ənənlərini müşahidə etməmək mümkün deyil.

Azərbaycanda sözün, kitabın əsrləri əhatə edən uzun bir tarixi vardır. Bu tarix təkcə nəşr olunan kitablarla bitmir. Belə ki, müəyyən zamanlarda qayaların, daşların üzərinə həkk olunmuş yazılardan başlayaraq cünklərdə, risalələrdə işləməklə davam etmiş, müasir mərhələyə qədər gəlib çıxmışdır.

Maarifçilik hərəkatı Azərbaycan ədəbi-mədəni mühitində XIX əsrin hadisəsi kimi meydana çıxmışdır. Məktəb, mədrəsə, müəyyən dərəcədə təlim və tərbiyə hələ orta əsrlərdən mövcud olduğu bizə məlumdur. Lakin bütün bunlar uzun zaman içərisində milli maarifçiliyimizin bir ideologiya səviyyəsinə yüksəlməsinə zəmin yaratmışdır. "XIX əsrin 80-90-cı illəri maarifçilik hərəkatı əhatə dairəsinin genişiyi ilə diqqəti cəlb edir". [2, s. 119]

Yaxın Şərqin, eyni zamanda Avropanın, Rusiyanın elm ocaqlarında istər ali, istərsə də ixtisas təhsili almış maarifpərvər gənc nəslin nümayəndələri Azərbaycanın ayrı-ayrı yaşayış yerlərinə (şəhərlərə və iri kəndlərə) göndərilmişdir. O dövrdə Azərbaycanın bir sıra əyalətlərində məktəblər açılmış və fəaliyyətə başlamışdır.

XIX əsrin 90-cı illərində maarifçi mühiti Azərbaycanda artıq mövcud idi. Bu dövrü maarifçi mühitin maarifçilik hərəkatına çevrilməsi də adlandırmaq olar. Azərbaycan ədəbiyyatı yarandığı dövrdən etibarən ədalətin, işıq və gözəlliyin tərənnümçüsü olmuşdur.

Gözəllik məfhumu Azərbaycan ədəbiyyatının ruhudur, canıdır. Insanda gözəllik cəmiyyətin bütün həyatında, təbiətdə gözəllik...

XIX əsr ədəbiyyatının nümayəndələrindən hesab edilən İ.Qutqaşınlı, A.Bakıxanov, Q.Zakir, Ə.Nəbati, S.Ə.Şirvani və dövrün digər adını çəkmədiyimiz simalarının yaradıcılığında həyat gözəlliklərinin qələmə alındığının şahidi oluruq. Xalq ruhunun yenilməz gücünə, real, işıqlı düşüncələrin bədii ifadələrini XVI əsrdə Xətaidə, XVIII əsrdə Vaqifdə, XIX əsrdə isə Seyid Əzimdə, Cəlil Məmmədquluzadədə, eyni zamanda Sabirin yaradıcılığında görürük.

XIX əsr Azərbaycan tarixində xüsusi bir mərhələ təşkil edir, bu əsr həyatın bütün sahələri kimi Azərbaycan ədəbi və mədəni mühitində də o vaxta qədər görülməmiş bir əsr oldu.

A.Bakıxanov, Q.Zakir, M.Ş.Vazeh, Mirzə Kazım bəy kimi maarifçi ziyalı və mütəffəkkirlərimiz xalqımızın zəngin ənənlərinə əsaslanaraq, söykənərək iftiraya qarşı mübarizə apara-apara maarif, dil, elm uğrunda mübarizə aparmağa başladılar (həmin dövrdə Cəlil Məmmədquluzadə nəsr əsərləri ilə Azərbaycanda nəsrin, xüsusilə balaca həcmli hekayə və povest janrını formalaşdırmış oldu).

Azərbaycan ədəbi həyatı istər Rusiya, istərsə də Qərbi Avropadan yeni güclü ideya-estetik təkan alırdı. Bunu həmin əsrin mühüm yeniliklərindən hesab etmək olar. Mirzə Fətəli Axundzadənin şəxsində Moskva, Berlin və s. kimi qəzetlərdə, dünya ədəbiyyatına yeni bir istedadın (Şərqli bir söz sahibinin) gəldiyini cəmiyyətə yazaraq bildirirdilər.

İ.Qutqaşınlının məşhur "Rəşid bəy və Səadət xanım" əsəri məhz həmin dövrdə fransızcaya çap edildi. Eyni zamanda XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi olan şair "Mirzə Şəfinin Şərqiləri" əvvəlcə alman dilində, sonra isə bir sıra başqa dillərdə çap olundu. Onu da qeyd etmək yerinə düşər ki, XIX əsr ilk və sonrakı dövrlərində satiriklərin yaradıcılıq nümunələri yaşadıqları quruluşun eybəcərliklərindən tam olaraq baltalamaq dərəcəsinə gəlib çıxmamışdır.

Bu nə, qubernator, bu necə sərdar?
Dağılıb vilayət, oldu tarmar!

Rahi müsibətdə keçmişəm candan!
Müxənnətdir qorxan bir qaşıq qandan!
Ehtiyatım yoxdur paşadan, xandan,
Analar doğubdur şiri-nər məni!

Şah qafil yaşasa xalqdan, dövlətdən,
Zövq alsa ancaq o, eysü işrətdən,
Dövlətin əsası verilər yerə

(Qüdsi). [3, s. 31]

Dövrünün bir sıra müasirləri kimi A.Bakıxanovun yaradıcılığı çoxşaxəli idi. Belə ki, şairin lirik və satirik şeirləri ilə bərabər həm də "Gülüstani İrəm" kimi tarixi monoqrafiyası, "Kəstfül-qəraib" (Qəribəliklər kəşfi), "Əsrarü Məlaküt" (planetlərin sirləri) və s. kimi əsərləri də mövcud idi ki, bu da yeni dövrün, yeni poeziyanın nümunələri hesab edilə bilər.

Həmin dövrdə milli poeziyamızın diqqəti cəlb edən qollarından birini "Məclisi-şüəra" (Bakı), "Məclisi Üns" (Şuşa), "Əncüməni-şuəra" (Naxçıvan) və digər ədəbi məclislər təşkil edilirdi. Bu məclislər də yeni-yeni istedadların yetişməsinə təkan verirdi.

XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Mirzə Fətəli Axundzadə doğma ədəbi-mədəni mühitimiz üçün çox dəyərli töhfələr vermişdir. M.F.Axundzadə öz xalqının mənəvi inkişafına güclü təkan verən, xalqını mənəvi inkişafın ən yüksək zirvəsinə qədər ucaldan, dahi sənətkar, ictimai xadim və böyük mütəffəkkirdir. Böyük sənətkar ədəbiyyatımızda dramaturgiyanın, tənqidi realizmin və eyni zamanda milli ədəbi dilin banisi hesab oluna bilər.

Böyük yazıçımızın xidmətlərinə bir sıra əsərləri daxildir. Bunların bəzilərinin adlarını sadalamaqla tədqiqata cəlb etdiyimiz mövzunun dəyərini daha artırmış olarıq. "Hacı Qara", "Misyo Jordan" və s. komediyaları, "Kəmalidövlə məktubları" traktatı, "Aldanmış kəvakib" povesti və s. Xalqını azad görmək, Şərq torpağının gözəl cənnətə çevrilməsi və bu kimi gözəl arzular Axundzadə yaradıcılığının özəyini təşkil edirdi.

Mirzə Fətəli Axundzadə otuz ildən artıq bir zamanda demək olar ki, təkbaşına qələm çaldı. Doğma ədəbiyyat və mədəniyyət zəmisinə elə toxumlar səpdi ki, o toxumlar öz bəhrəsini əsrin

70-80-ci illərində vermiş oldu. H.Zərdabi, H.Vəzirov, S.Ə.Şirvani, M.Sidqi, M.Şaxtaxtinski, C.Məmmədqulizadə və s. yazıçılar məhz o münbit toxumların mükəmməl cücərtiləri idi.

Elə məhz həmin dövrlərdən başlayaraq maarifçilərin fəaliyyətində, dövrünün tələblərinə uyğun bir ideologiya formalaşmağa başladı. Əsrin ikinci yarısında Azərbaycan ədəbi həyatında ilkin olaraq ilk milli mətbuat orqanı yaradıldı. Bu mətbuat orqanı əvvəlcə "Əkinçi" (1875-1877), sonra isə "Kəşkül" (1883-1891) oldu.

Azərbaycan ədəbiyyatında tənqidi-realist satirik ədəbiyyatın əsasını qoyan Cəlil Məmmədquluzadədir. O özündən əvvəl ədəbiyyat mövcud olmuş maarifçi realist ideya və ənənələri tənqidi relizm səviyyəsinə qədər yüksəlib qalxmışdır. Cəlil Məmmədquluzadə ədəbiyyatla yaşayan insanların həyat tərzlərinin daha dərindən analiz etməyə, insanın mənəvi aləmini ən dərin incəliklərinə qədər nüfuz edərək və elə bu incəlikləri özünəməxsus fərqli bədii vasitələrlə canlandıran bir sənətkardır.

Cəlil Məmmədquluzadə yaratmış olduğu obrazların taleyi XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan xalqının həyatının bütüb reallıqlarını özündə ümumi şəkildə əks etdirir.

XIX əsrin əvvəllərindən başlayaraq ədəbi-mədəni əlaqələrin Naxçıvanla əlaqədar bir sıra diqqətəlayiq hadisələri olmuşdur. Bu diqqətəlayiq hadisələrin mahiyyətində də maarifçi humanizmin xüsusiyyətlərini gözdən qaçırmaq olmaz. Həmin dövrdə Azərbaycanın qadın şairləri içərisində özünəməxsus yeri olan Qönçəbəyimi qeyd etmək də yerinə düşər. Qönçəbəyim öz şeirlərində dövr və zəmanədən gileylənir və haqq səsini ucaldır.

Hicran sənətkarı, qəm xiridarı,
Qəddar olan, büqrara de gəlsin.
Yenə təzələsin didar-didarı,
Ciyər oldu həzar parə, de gəlsin.

Ərzi-halın yazdırmışam ərzədə,
Qara bağrım yar zədədir, yar, zədə,
Bir müddət də qaldıq İmamirzədə,
Eylədi dərdimə çarə, de gəlsin.
[1, s. 7]

Əvvəli olduğu kimi XIX əsrin sonlarında və XX əsrin əvvəllərində şifahi xalq sənəti yeni-yeni əsərlər sayəsində zənginləşirdi. Həmin dövrdə xalqın həyatı, mənəviyyatı ilə canlı şəkildə əlaqə saxlayan bir yaradıcılıq da mövcud idi. Bu aşıq yaradıcılığı idi. Elə həmin dövrdə yaranan aşıq şeir nümunələri dövrün bədii nailiyyətlərindən hesab edilə bilər. Həmin dövrdə Aşıq Alı, Aşıq Qurban, Aşıq Ələsgər və başqaları misal göstərə bilərik.

Aşıq şeirində el sənətkarlarının öz yaradıcılıqlarında məhəbbət lirikası üstünlük təşkil edirdi. Amma məhəbbət lirikası ilə bərabər vətəndaşlıq mövzuları da nümayiş olunurdu. Zəmanədən şikayət, haqsızlıq, özbaşınalıq kimi hallar aşıqların telli sazlarının müşayəti ilə etiraz şəklində səsləndirilirdi.

Qərinələr keçdi, dövran dəyişdi,
Pozuldu qurğular, nizam qalmadı
Zəmanə bəd gəldi, insan bic oldu;
Seyiddə, Mollada iman qalmadı.
Yaxud:
Ələsgər, üsyanın çıxıbdı candan,
Öldürsən zənburu, əl çəkmə şandan.
Hərcayıdan, müxənnəsdən, nadandan
Nə söz qaldı sənətkara dəyməmiş!?
[3, s. 38]

Bu nümunələrdən də görünür ki, kədər və qüssə motivləri olsa da, siyahı poeziyanın mübariz ruhu o dövrdə də özünü qoruyub saxlamaqda idi.

Azərbaycan ədəbi-mədəni mühitində fəaliyyət göstərən, yazıb-yaradan şairlər, maarifpərvər ziyalılar həyatın ağır çağlarında belə haqqa, ədalətə inanmışlar. Ədəbiyyata, ədəbi irsə, maarifçi ideyalara gələcək nəsillərin qədir bilərək yanaşmalarına ümidlə baxmışlar. Bəli, tarix bu yaradıcı insanların fikirlərinin nə qədər doğru olduğunu bir daha təsdiqləmiş oldu.

**Nəticə**

Ədəbi irsimiz, ədəbi ənənələrimiz gənc nəslin nümayəndələri tərəfindən, ədəbiyyatçılar ədəbiyyatımızı, mənəviyyatımızı tədqiq edib araşdıranlar daima axtarışdadırlar. Ümid edirəm ki, bu sahədəki araşdırmalar daima aparılacaq. Hələ tədqiqata, araşdırmalara cəlb oluna biləcək əsərlər, yaradıcılıq nümunələri çoxdur. Gələcək nəsillər bu müqəddəs, işıqlı yolu daima davam etdirəcəklər. Böyük müttəffəkirlərimiz də əsrlərin "pəncərə"sindən dərin minnətdarlıq hissi ilə onlara təşəkkür dolu baxışları ilə baxacaqlar.

**ƏDƏBİYYAT**


1. İsa.Ə.Həbibov Ədəbi Yüksəliş Bakı, 1985.
2. İsa Həbibbəyli. Cəlil Məmmədquluzadə mühiti və müasirləri. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı-1997.
3. Azərbaycan Klassik ədəbiyyatı kitabxanası. 20 cilddə, Birinci cild "Elm" nəşriyyatı, Bakı, 1982.



***Naxçıvan Müəllimlər İnstitutu, dosent,***
***Filologiya üzrə fəlsəfə doktoru***
***E-mail: shahlaFataliyeva@nmi.edu.az***

**Shahla Fataliyeva**


**LITERARY AND CULTURAL ENVIRONMENT OF 19TH CENTURY AZERBAIJAN IS A NEW STAGE**


In the article, the literary and cultural environment of Azerbaijan is involved in the research as a new stage. Like the history of the Azerbaijani people, its literature and cultural environment go back to ancient roots. For centuries, literature has been a means of understanding people, nature, society, life events, and at the same time beauty. In the main part of the article, the processes taking place in the literary and cultural environment of Azerbaijan since the 19th century have been involved in the research.

Information about the Enlightenment movement, the presence of school, madrasa, training and education in the literary and cultural environment of Azerbaijan is already known to us.

The 19th century is a special stage in the history of Azerbaijan. This shows itself in the field of literature as well. A. Bakıkhanov, G. Zakir, M. Sh. Vazeh and other writers can be an example of this. The foundation of critical-realist satirical literature was laid in Azerbaijani literature in that period. C. Mammadguluzade and others have created perfect examples in this field.

In the same period, examples of love poems can be considered among the literary and cultural achievements of the period. We can show creative poets like Ashıg Alasgar, Ashıg Gurban, Ashıg Ali as an example. All this is widely reflected in the article.


**Keywords:** *literary, cultural, poet, intellectual, Azerbaijan*

**Шахла Фаталиева**

**ЛИТЕРАТУРНАЯ И КУЛЬТУРНАЯ СРЕДА АЗЕРБАЙДЖАНА XIX ВЕКА – НОВЫЙ ЭТАП**


В статье литературно-культурная среда Азербайджана задействована в исследовании как новый этап. Как и история азербайджанского народа, его литература и культурная среда восходят к древним корням. На протяжении веков литература была средством понимания людей, природы, общества, жизненных событий и вместе с тем красоты.

В основной части статьи исследованы процессы, происходящие в литературной и культурной среде Азербайджана начиная с XIX века.

Нам уже известны сведения о движении Просвещения, наличии школы, медресе, обучения и воспитания в литературной и культурной среде Азербайджана. XIX век – особый этап в истории Азербайджана. Это проявляется и в области литературы. Примером могут служить А. Бакыханов, Г. Закир, М. Ш. Ваze и другие писатели. В этот период в азербайджанской литературе были заложены основы критически-реалистической сатирической литературы. Ч.Мамедгулузаде и другие создали прекрасные примеры в этой области.

В этот же период примеры любовных стихов можно отнести к числу литературных и культурных достижений того периода. В качестве примера мы можем показать таких творческих поэтов, как Ашыг Алескер, Ашыг Гурбан, Ашыг Али. Все это широко отражено в статье.

**Ключевые слова:** *литературный, культурный, поэт, интеллектуал, Азербайджан.*

*Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 10.02.2025**
**Son daxilolma tarixi:11.03.2025**